# ƏLİLLƏR DÜNYASI

№ 01 (41) 28 YANVAR 2010-cu il Editorial "The World of the Disables" Müstəqil ictimai-siyasi qəzet Qəzet 2004-cü ildən çıxır


## "Qarşılıqlı inama və faydalı əməkdaşlığa əsaslanan Yaponiya-Azərbaycan münasibətləri yüksək səviyyədə inkişaf edir"

### Səfir Masamitsu Oki: «Hazırda Yaponiya ilə Azərbaycan arasındakı əlaqələr ən yüksək səviyyədədir və biz gələcəkdə daha da sıx əlaqələr qurmaq arzusundayıq»

*"Günəş ölkəsi" adlandırılan Yaponiya barəsində düşünərkən dərhal gözlərimiz önündə elmin, təhsilin və ən yeni texnologiyaların yüksək sürətlə inkişaf etdiyi bir ölkə canlanır. Yaponiyanın iqtisadiyyatının yüksək sürətlə inkişaf etməsi bu ölkənin dünyanın aparıcı dövlətləri sırasında öncül yer tutmasında mühüm rol oynayır. Əhalisin sayına görə dünyanın böyük dövlətlərindən biri olan Yaponiyanı səciyyələndirən əsas xüsusiyyətləridən biri də onun inkişaf etməkdə olan ölkələrə xeyirxah məqsədlərlə köməklik göstərməsidir. Yeri gəlmişkən, Yaponiya dövləti bir çox sahələrdə olduğu kimi, Azərbaycanda əlillər üçün müasir standartlara uyğun müalicə-bərpa mərkəzlərinin inşa edilməsinə də hərtərəfli köməklik göstərir.*

*Yapon xalqı sadə, səmimi, təvazökar, mədəni bir xalqdır. Yaponların qonaqpərvərlik kimi müsbət bir xüsusiyyəti də var ki, bu da öz növbəsində Yapon xalqı ilə Azərbaycan xalqını döğmalaşdıran bir xüsusiyyətdir. Bəs, müstəqil Azərbaycan Respublikası ilə Yaponiya arasında ikitərəfli*



*münasibətlərin bugünki vəziyyəti necədir? Ölkələrimiz arasında hansı sahələrdə sıx əlaqələr qurulub? Suallarımızı Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Masamitsu Oki cavablandırır.*

**-Cənab səfir, ilk növbədə özünüz barədə qısa məlumat verməyinizi xahiş edirik.**

-Məmnuniyyətlə. Azərbaycana gəlməzdən öncə, mən Yəmən və Küveytdə səfir işləmişəm. Həmçinin 2003-cü və 2004-cü illərdə İraqa cavabdeh olan səfir olmuşam. Bundan əvvəl isə mən Türkiyə, Səudiyyə Ərəbistanı, ABŞ və İndoneziyada da çalışmışam. Yaponiyada aldığım təhsildən savayı, mən ABŞ-da, Livanda, Misirdə və Böyük Britaniyada da təhsil almışam.

Mən 10 il bundan öncə Türkiyədə işləyərkən orada bir neçə azərbaycanlı ilə tanış oldum. Onların vasitəsilə Azərbaycan haqqında öyrəndim, Azərbaycan xalqının adət-ənənələri və mədəniyyəti ilə tanış oldum. Beləliklə, həmin dövr ərzində mən ilk dəfə Azərbaycana turist kimi gəldim. O vaxt məndə belə təəssürat yarandı ki, ölkənizin özünəməxsus ənənələri və Bakıdakı İçərişəhər kimi mədəni bir irsi var. Həmçinin Azərbaycan xalqının qonaqpərvərliyi və istiqanlılığı da məndə zəngin təəssürat yaratdı. Mənim bu ölkədən xoşum gəldi və beləliklə, yaşayıb-işləmək istədiyim ölkələr siyahısında Azərbaycan ən üst sıranı tutdu. Bu 10 il ərzində Azərbaycan çox inkişaf etmişdir. Amma Azərbaycan xalqının istiqanlılığı və qonaqpərvərliyi dəyişmədən qalıb və xalqınızın ən çox sevdiyim cəhəti də məhz budur.

**Davamı səh. 2-də**

## Şamaxıda xeyirxah tədbir

***Bu** il yanvar ayının 15-də Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Pyer Kristofer Stankina, onun xanımı Kanta Taluktar Stankina Şamaxıdakı 1 saylı İxtisaslaşdırılmış Ruhi-Əsəb İnternat Evində olmuşlar. Səfərdə məqsəd ictimaiyyət və kütləvi informasiya vasitələri nümayəndələrini xanım Kanta Taluktar Stankinanın növbəti xeyirxah layihəsi çərçivəsində Şamaxıdakı 1 saylı İxtisaslaşdırılmış Ruhi-Əsəb İnternat Evinin hamam və sanitar qovşağının Avropa standartlarına uyğun təmirindən sonra tanış etmək olmuşdur. «Beynəlxalq Əlillər Cəmiyyəti» İctimai Birliyinin sədri və qəzetimizin baş redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Tahir Xudiyev və Cəmiyyətimizin üzvü Qəzənfər Qəhrəmanov da xanım Kanta Taluktar Stankinanın dəvətilə tədbirdə iştirak etmişlər.***



Tədbirdən əvvəl Şamaxı 1 saylı İxtisaslaşdırılmış Ruhi- Əsəb İnternat Evinin direktoru Mübariz Məmmədovla görüşən əməkdaşlarımız ondan İnternat Evi barədə məlumat verməsini xahiş etmişlər. Mübariz Məmmədovun dediklərindən:

- Şamaxı 1 saylı İxtisaslaşdırılmış Ruhi- Əsəb İnternat Evinin yaşayış binası və onun yardımçı binaları 1975-ci ildə inşa olunmuşdur. İnternat Evində 100 nəfər əlil və kimsəsiz insan yaşayır. İnternat Evinin 35 nəfər işçisi var.

2003-cü ilə qədər İnternat Evinin istər yaşayış binasında, istərsə də yardımçı binasında heç bir əsaslı təmir işləri görülmədiyndən bina tam yarasız hala düşmüşdü. İnternat Evinə məxsus olan 100 tonluq su anbarı boş idi, adicə əl-üz yumaq üçün işçilər və xəstələr qonşu binaların həyətindən su daşıyırdılar. Qapı-pəncərələrin sınıq-salxaq olması səbəbindən qış vaxtlarında xəstələr qapı-pəncərələrə çarpayı örtüyü və geyim əşyaları tuturdular. Hamam və paltar yuyulan camaşırxanadan heç danışmağa dəyməzdi.

İnternat Evinin keçmiş rəhbərliyinin səhlənkarlığı və işə laqeydliyi Baş İdarənin diqqətindən yayınmadı. 2003-cü ilin mart ayının əvvəllərində mən Şamaxı 1 saylı İxtisaslaşdırılmış Ruhi- Əsəb İnternat Evinə direktor təyin edildim. Mübaliğəsiz deyə bilərəm ki, 1 il müddətində gecə-gündüz yorulmadan çalışaraq bu İnternat Evində yeni abhava yaratdım. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, respublikamızda fəaliyyət göstərən xarici şirkətlərin, humanitar təşkilatların və xeyriyyəçi insanların köməkliyi ilə İnternat Evində təmir işləri aparmağa müvəffəq olduq. İnternat Evində əsaslı təmir işləri apararkən hər xırda məqama diqqət yetirirdik. İnternat Evinə su xətti çəkildi. 100 tonluq su anbarı indi həmişə su ilə dolu olur. Elə buna görə də İnternat Evinin hər 3 mərtəbəsində gecə-gündüz su var. Hamam və camaşırxana daim işləyir. Nəticədə, İnternat Evi tanınmaz dərəcədə dəyişdi və istər yaşayış binası, istəsə də yardımçı binada aparılan keyfiyyətli təmir işlərindən sonra Şamaxı 1 saylı İxtisaslaşdırılmış Ruhi-Əsəb İnternat Evi öz gözəlliyinə və səliqə-səhmanına görə rayonda nümunəvi bir müəssisəyə çevrildi.

**Davamı səh. 2-də**

## Təbrik edirik!



Fevral ayının 10-u dünya şöhrətli alim, vətənpərvər və millətsevər ziyalı, kollektivimizin sevimlisi, Azərbaycan Dövlət Neft Akademiyasının Avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri, texnika elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət Mükafatı laureatı, ABŞ-ın Corciya Dövlət Universitetinin Biznesin idarə olunması Proqramının direktoru, "Əlillər Dünyası" qəzetinin Redaksiya Heyətinin üzvü Rafiq Əliyevin doğum günüdür. Xalqımızın görkəmli alimi, dəyərli ziyalısı Rafiq müəllimi ad günü münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

**Hörmətlə,**

**"Əlillər Dünyası" qəzetinin və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin kollektivi**

## Bir görüşü xatırlayarkən...

Böyük qazax yazıçısı, şairi, publisisti, tərcüməçisi, alimi və ictimai xadimi Oljas Suleymenovun adı dünyanın tərəqqipərvər xalqlarına yaxşı məlumdur. Parlaq fitri istedada malik, yüksək ümummilli və ümumbəşəri dəyərləri öz şəxsində, bədii-publisistik yaradıcılığında və ictimai-siyasi fəaliyyətində dolğun şəkildə cəmləşdirən Oljas Süleymenov sözün həqiqi mənasında Türk-İslam dünyasının böyük qürur və fəxr mənbəyidir. Bu böyük alimin Türk xalqlarının tarixinin obyektiv şəkildə, elmi cəhətdən əsaslandırılmış qaydada tədqiq edilməsində, eləcə də Türk xalqlarının mədəniyyətinin, ədəbiyyatının inkişafında, təbliğində və bütün dünyada tanınmasında müstəsna xidmətləri var. Oljas Süleymenov həm də sözün əsl mənasında Azərbaycan xalqının yaxın dostu, müdafiəçisi və həmfikridir. Xüsusilə də, 1990-cı ilin qanlı 20 Yanvar faciəsi zamanı Oljas Süleymenovun xalqımızla dərhal mənəvi-siyasi birlik nümayiş etdirməsi, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün həyata keçirdiyi fədakar fəaliyyəti qədirbilən xalqımız heç zaman unutmayacaqdır.



Yeri gəlmişkən, dünya şöhrətli yazıçı və ictimai xadim Oljas Süleymenovun qəzetimizin təsisçisi və baş redaktoru, BƏCİB-in sədri, AJB-nin üzvü Tahir Xudiyevlə də şəxsi tanışlığı vardır. Belə ki, Tahir Xudiyev 1983-cü ildə Qazaxstanda olarkən məşhur yazıçı ilə rəsmi toplantıların birində görüşmüş və ona öz sayğılarını bildirmişdir. Görkəmli yazıçı ilə həmin görüşünü həmişə ömrünün ən xoş günlərindən biri hesab edən T.Xudiyev sonralar da onun çoxşaxəli bədii-publisistik yaradıcılığının və millətsevər ictimai-siyasi fəaliyyətinin soydaşlarımız arasında təbliğ edilməsi üçün əlindən gələni əsirgəməmişdir. Elə 2009-cu il dekabr ayının 16-da Qazaxıstanın Müstəqilliyi Günü münasibətilə "Gülüstan" sarayında keçirilən mərasimdə yenidən böyük yazıçı ilə görüşmək imkanı əldə edən T. Xudiyev bu xoş təsadüfdən məmnun qaldığını bildirir. Sözügedən mərasim zamanı həm O. Süleymenov, həm də T.Xudiyev həmin görüşü böyük razılıq hissi ilə xatırlamışlar. Mərasim zamanı onlar xatirə şəkli də çəkdirmişlər.

Məlumat üçün onu da qeyd edək ki, həmin mərasimdə Kənd Təsərrüfatı Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Esmira Lətifova, "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin direktoru İslam Baxşəliyev, "Müasir Cəmiyyət və Qadın Hüquqları" İctimai Birliyinin sədri Xanım Əhmədzadə və BƏCİB-in üzvü Nadir İsmayılov da iştirak etmişlər.

***Mənsur İbrahimli,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

## Bu sayımızda:


**20 Yanvarı xatırlayarkən...** Səh.3-də

**"Dünyanın bütün mütərəqqi ölkələrində olduğu kimi, Azərbaycanda da ürək-damar sistemi xəstəliklərindən əziyyət çəkən insanlara dövlət səviyyəsində qayğı və diqqət ildən-ilə artır"** Səh. 3-də

**Bizimlə yanaşı olanlar** Səh.4--də

**"MÜXTƏLİFLİYİ QƏBUL ET, AYRI-SEÇKİLİYƏ SON QOY"- İNSAN HÜQUQLARI GÜNÜNÜN DEVİZİ** Səh.4-də